Azərbaycan Respublikası üzrə 2018-ci ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiq olunması və ictimailəşdirilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının aşağı seçki komissiyaları ilə birlikdə həyata keçirdiyi fəaliyyət istiqamətlərindən biri də hər il vahid seçici siyahılarının tərtib edilməsi, dəqiqləşdirilməsi və ictimailəşdirilməsidir. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 46.12-ci maddəsinə əsasən, seçki məntəqəsi üzrə tərtib olunmuş ilkin seçici siyahıları hər il fevralın 5-dən gec olmayaraq *(lakin səsvermə gününə azı 25 gün qalmış)* dairə seçki komissiyasına, seçki dairələri üzrə ilkin seçici siyahıları isə aprelin 5-dək Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Müvafiq iş aparıldıqdan və may ayının 30-dan gec olmayaraq dairə və məntəqələr üzrə məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunduqdan sonra həmin siyahılar dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək ictimailəşdirilməlidir.

Bununla yanaşı, Seçki Məcəlləsinin 46.1-ci maddəsinin tələbinə görə səsvermə gününə azı 25 gün qalmış dəqiqləşdirilməli olan seçici siyahıları məntəqə seçki komissiyaları tərəfindən seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün seçicilərə bu barədə məlumat verməklə səsvermə gününə azı 35 gün qalmış təqdim edilməli və bunun üçün müvafiq şərait yaradılmalıdır.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin seçkiləri cari il aprelin 11-nə təyin edildiyindən seçici siyahılarının tərtib edilməsi, dəqiqləşdirilməsi və ictimailəşdirilməsi ilə bağlı seçki qanunvericiliyində müəyyənləşdirilmiş müddətlərə Seçki Məcəlləsinin 207-ci maddəsində nəzərdə tutulmuş qaydada yenidən baxılmasına ehtiyac yaranmışdır. Belə ki, ölkə üzrə vahid seçici siyahılarının mayın 30-dək təsdiq edilməsi tələbi seçicilərin onlarla tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün səsvermə gününə azı 35 gün qalmış ictimailəşdirilməsi tələbi ilə uzlaşdırılmalıdır.

Buna görə də, seçki dairələri üzrə seçici siyahılarının fevralın 25-dən gec olmayaraq təsdiq edərək Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi dairə seçki komissiyalarına tövsiyə edilməli, Mərkəzi Seçki Komissiyası isə öz növbəsində siyahıları nəzərdən keçirərək dəqiqləşdirmə, tərtibetmə və ictimailəşdirmə fəaliyyətini martın 1-dən gec olmayaraq yekunlaşdırmalıdır. Dairə və məntəqələr üzrə təsdiq edilməsi üçün aşağı seçki komissiyalarına göndərildikdən sonra daimi seçici siyahıları Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilməlidir. Bununla yanaşı dairə və məntəqə seçki komissiyaları siyahıları rəsmi qaydada təsdiq etdikdən sonra martın 7-dən gec olmayaraq *(səsvermə gününə azı 35 gün qalmış)* seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün ictimailəşdirməlidirlər.

Qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.17-ci, 28.2-ci, 28.4-cü, 45.2-ci, 45.3-cü, 46.1-ci, 46.12-ci, 48.1-ci və 207-ci maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. Azərbaycan Respublikası üzrə 2018-ci ilin daimi seçici siyahılarının dəqiqləşdirilməsi, tərtib edilməsi, təsdiq edilməsi və ictimailəşdirilməsi cari il martın 3-dək başa çatdırılsın.

2. Bununla əlaqədar:

2.1. Seçki dairələri üzrə dəqiqləşdirilmiş seçici siyahılarının *(təsdiq edilmə tələblərinə əməl olunmaqla)* fevralın 25-dən gec olmayaraq Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi dairə seçki komissiyalarına tövsiyə edilsin;

2.2. Martın 1-dən gec olmayaraq Mərkəzi Seçki Komissiyası tərəfindən respublika üzrə daimi seçici siyahılarının dəqiqləşdirilməsi və tərtib edilməsi işinə yekun vurulsun və siyahılar martın 3-dək *(dairə və məntəqələr üzrə təsdiq edilməsi üçün)* müvafiq dairə seçki komissiyalarına göndərilsin;

2.3. Daimi seçici siyahıları dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edildikdən sonra Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməklə ictimailəşdirilsin;

2.4. Dairə və məntəqələr üzrə seçici siyahıları cari ilin martın 7-dən gec olmayaraq *(səsvermə gününə azı 35 gün qalmış)* seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün ictimailəşdirilsin.

3. Mərkəzi Seçki Komissiyası, dairə və məntəqə seçki komissiyaları tərəfindən öz səlahiyyətləri daxilində bu qərarın icrası ilə əlaqədar müvafiq tədbirlər görsün.

4. Bu qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov